AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2026

**ISSN (Online) 3134-7231**
**ISSN (Print) 3134-9013**

**Bakı – 2026**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ CAMPİERO**
Professor; Venesiya Ka Foskari Universiteti, İtaliya
**CAVADİ HƏSƏN**
Professor; Kaliforniya Universiteti, ABŞ
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**ÇALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Professor; Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDA**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Professor; Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Professor; İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OÇİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİYEV ŞODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Professor; Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1, 2026. – 168 səh. Bakı, BDU, 2026.

© Bakı Dövlət Universiteti, 2026

## ƏDƏBİYYATŞÜNASLIQ


*ƏQİQ CƏFƏRZADƏ Gülnar*
**QACAR ŞAHZADƏLƏRİNİN BƏDİİ İRSİ – MƏHƏMMƏDƏLİ MİRZƏ DÖVLƏTŞAH**
The Literary Legacy of Qajar Princes – Mohammad-`Ali Mirza Dowlatshah **13**
https://doi.org/10.30546/209805.2026.105.1.305

*HÜSEYNBALAYEVA Təranə*
**"ƏHDİ-ƏTİQ" MƏTNLƏRİNDƏ QƏHRƏMANLIQ MÖVZUSU VƏ ONUN DÜNYA ƏDƏBİYYATINDA ARXETİPİK YERİ**
The Theme of Heroism in the Texts of the Old Testament and Its Archetypal Role in World Literature **23**
https://doi.org/10.30546/209805.2026.105.1.309

*HÜSEYNOV Rafael*
**THE POWER OF THE CLASSICAL PERSIAN POETIC HERITAGE TO ENDURE AND SERVE AS A MODEL**
Klassik farsdilli poetik irsin yaşamaq və örnək olmaq gücü **34**
https://doi.org/10.30546/209805.2026.105.1.312


## DİLÇİLİK


*ƏLİBƏYLİ Şəfəq*
**FÜZULİNİN "SAQİNAMƏ" ƏSƏRİNİN TƏRCÜMƏSİNİN LİNQVOPOETİK XÜSUSİYYƏTLƏRİ**
Linguopoetic Features of The Translation of Fizulu "Saginama" **73**
https://doi.org/10.30546/209805.2026.105.1.321

*QARADAĞLI VÜQAR*
**THE FUNCTIONAL DOMAINS OF *JARR* AND *NAṢB* IN ARABIC: A CONTRASTIVE ANALYSIS WITH THE AZERBAIJANI CASE SYSTEM**
Ərəb dilində *jarr* və *naṣb*-ın funksional sahələri: Azərbaycan dilinin hal kateqoriyası ilə müqayisəli təhlil **83**
https://doi.org/10.30546/209805.2026.105.1.328

*MƏMMƏDOVA Ziyafət*
**KLASSİK FARSDİLLİ POEZİYA NÜMUNƏLƏRİNDƏN SEÇİLMİŞ BİTKİ ADLARININ İZAHLI LÜĞƏTİ**
An Explanatory Dictionary of Plant Names Based on Selected Examples of Classical Persian Poetry **95**
https://doi.org/10.30546/209805.2026.105.1.335


## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR


*XƏNDAN Aydan*
**MEHMET KAPLAN. ŞEİR TƏHLİLLƏRİ 2 (CÜMHURİYYƏT DÖVRÜ TÜRK ŞEİRİ)**
Mehmet Kaplan. Poetry Analysis 2. (Turkish Poetry of the Republican Period) **119**
https://doi.org/10.30546/209805.2026.105.1.333

*QASIMOVA Aidə*
**ÜMİD SAFİ. RADİKAL EŞQ: İSLAM MİSTİK ƏNƏNƏLƏR TƏLİMİ**
Omid Safi. Radical Love: Teachings from Islamic Mystical Tradition **124**
https://doi.org/10.30546/209805.2026.105.1.337

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*GÜLTEKİN İlhamə*
**ƏHMƏD HƏZİNİNİN "CAMİÜL-MÜRŞİDİN" ƏSƏRİNİN BERLİN KİTABXANASINDA QORUNAN YEGANƏ ƏLYAZMA NÜSXƏSİ HAQQINDA**
About The Only Manuscript Copy of Ahmed Hazini's Jâmiu'l-Murshidîn Preserved In The Berlin Library **139**
https://doi.org/10.30546/209805.2026.105.1.345

*HÜSEYNOV Rafael*
**TƏSƏVVÜF POEZİYASININ MAHİYYƏTİNİN DƏRKİ VƏ TƏŞƏKKÜLÜNÜN DÜZGÜN TƏSƏVVÜRÜ ÜÇÜN GƏRƏK OLAN TƏMƏL ŞƏRTLƏR**
The fundamental conditions necessary for a scientific understanding of the essence of Sufi poetry and a proper understanding of the process of its formation **146**
https://doi.org/10.30546/209805.2026.105.1.348

**APA7 qaynaq göstərmə təlimatı** **164**

**Nəşrə dair tələblər** **166**

**Publication requirements** **167**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT 821.512.162**
**821.222.1**
**DOİ** https://doi.org/10.30546/209805.2026.105.1.305

# QACAR ŞAHZADƏLƏRİNİN BƏDİİ İRSİ – MƏHƏMMƏDƏLİ MİRZƏ DÖVLƏTŞAH

**GÜLNAR ƏQİQ CƏFƏRZADƏ***

## Xülasə

*Qacar şahzadəsi Məhəmmədəli Mirzə poeziya aləmində "Dövlət" təxəllüsü ilə tanınmış və zəngin ədəbi irs qoymuşdur. Onun, təxminən, 4.000 beytdən ibarət şeir divanı günümüzə gəlib çatmışdır. "Divan-i Dövlət"in İranın müxtəlif kitabxanalarında bir neçə əlyazma nüsxəsi mövcuddur; bunlardan ən məşhurları İran Məclis Kitabxanasında və İran Milli Kitabxanasında saxlanılan nüsxələrdir. Bununla yanaşı, Dövlətşahın divanının nadir bir əlyazma nüsxəsi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda da qorunur.*

*Məhəmmədəli Mirzə Dövlətşahın "Divan-i Dövlət" adlı şeir külliyyatı Qacar dövrü saray poeziyasının ən səciyyəvi nümunələrindən biri olmaqla, klassik ədəbi ənənələrin davamı kimi qiymətləndirilə bilər. Divanın janr baxımından zəngin strukturu – qəzəl, rübai, məsnəvi, qəsidə və mərsiyələri əhatə etməsi müəllifin poetik imkanlarının genişliyini və ənənəvi formaları ustalıqla mənimsədiyini göstərir. Bu şeir toplusu Dövlətşahın məhəbbət, sufizm və dini-fəlsəfi mövzularda düşüncələrini əks etdirir. Divanın Bakı nüsxəsində mövcud olan türkcə mərsiyə Qacar şahzadəsinin Azərbaycan türkcəsinə yaxşı bələd olduğunun və Təbrizdə böyüyən şahzadələrin ana dilinə bağlılığının göstəricisidir.*

**Açar sözlər:** *Məhəmmədəli Mirzə Dövlətşah, Qacarlar sülaləsi, Divan-e Dövlət, poeziya, klassik ənənələr.*

## Giriş

Qacarlar dövrü (1796-1925) İran tarixində yalnız siyasi hakimiyyət dövrü kimi deyil, həm də zəngin mədəni-ədəbi mühitin özünəməxsus şəkildə formalaşdığı bir mərhələ kimi diqqət çəkir. Bu dövrdə saray mühiti poeziyanın himayəsi, təşviqi və yeni ifadə formalarının inkişafı üçün mühüm məkan rolunu oynamışdır. Qacar şahları və şahzadələri bir tərəfdən klassik farsdilli şeirin ədəbi ənənələrinə bağlı qalmış, digər tərəfdən isə dövrün siyasi və sosial reallıqlarını ədəbi mühitə gətirmişlər. Poeziya saray mərasimlərinin, ictimai və sosial münasibətlərin ayrılmaz hissəsinə çevrilmişdi. Şairlərin sarayla əlaqəsi ədəbiyyatın məzmununu, üslub və estetik meyarlarını da müəyyən edirdi. Bu baxımdan Qacarlar dövrü poeziyası klassik ənənələrlə realist yenilikçi cərəyanın üzləşdiyi bir dövrdə ədəbi oyanışın təkamül mərhələsi kimi Azərbaycan ədəbiyyatşünaslığının aktual mövzularındandır.

* Filologiya elmləri üzrə fəlsəfə doktoru; Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi; gulnarjafarzade2002@gmail.com; https://orcid.org/0000-0003-3907-8027

## 1. Fətəli şah Qacar – hakimiyyət və poeziya

Fətəli şah Qacar (1772-1834) Qacarlar sülaləsinin ikinci hökmdarı olub, 1797-1834-cü illərdə Qacar səltənətini idarə etmişdir. Fətəli şahın adı tarixdə həm də böyük hərəmxanasının, çoxlu sayda zövcələrinin və övladlarının olması ilə qalmışdır. Qacarlar xanədanına mənsub şahzadələr Fətəli şahın saysız-hesabsız evliliklərinin nəticəsi idi və onun çoxsaylı törəmələri vardı. Tarixi mənbələrdə Qacar şahının 100-dək oğul, 50-dək qız övladının adı çəkilir.

Fətəli şahın ilk izdivacından bir-birinin ardınca beş oğlu dünyaya gəlmişdi. Məhəmmədəli Mirzə Dövlətşah Qacar (h.q.1203/m.1789 – h.q.1237/m.1821) şahın ilk övladı, ən böyük, zəkalı və həm də sevimli oğlu idi. Lakin şahzadələr arasından Qacar taxt-tacının gələcək varisi Fətəli şahın Qovanlı-Qacarın Asiyabəyim xanım Dəvəli-Qacarla evliliyi nəticəsində dünyaya gələn oğlu Abbas Mirzə Naibüssəltənə seçilmişdi. Vəliəhd hələ Ağa Məhəmməd xanın sağlığında seçilmiş və bu seçimdə Qacar hökmdarının hakimiyyətin idarə olunmasında əsas meyar olan siyasi doktrinasının müddəaları əks olunmuşdu. Onun vəliəhdin seçilməsi üçün təsbit etdiyi qaydalara əsasən, Qacarların iki böyük tayfası – Qovanlu (Qoyunlu) və Dəvəlu (Dəvəli) tayfaları arasındakı nikahdan doğulmuş şəxs Qacar səltənətinin varisi olmalı idi. Bu siyasi doktrinanın əsasında iki tayfa arasında hakimiyyət uğrunda gedən çəkişmələrə son qoyulması və bununla da siyasi və hərbi ittifaq yaradılması məqsədi dururdu. Beləliklə, taxt-tacın gələcək varisinin timsalında hər iki Qacar soyu siyasi hakimiyyətdə təmsil olunurdu (Pakrəvan, 1376:11). Məhəmmədəli Mirzəni vəliəhd seçilməməsi ömrünün axırınadək narahat etmiş, qəlbində qardaşına qarşı dərin kin yaratmışdı. İranlı araşdırmaçı Əminə Pakrəvanın Qacarların tarixinə həsr olunmuş əsərlərində bu məsələ xüsusilə qabardılır.

Fətəli şah Qacar poeziyaya dərin maraq göstərən, ədəbiyyatı saray həyatının ayrılmaz hissəsinə çevirən hökmdarlardan olmuşdur. O, "Xaqan" təxəllüsü ilə şeirlər yazmış və ölümündən sonra "Divan-i Xaqan" adlı zəngin şeir külliyyatını yadigar qoymuşdur ki, bu da onun təkcə hökmdar deyil, həm də yaradıcı bir şəxsiyyət olduğunu göstərir. Onun dövründə Qacar sarayında "Əncümən-i Xaqan" adlı müntəzəm şeir məclisi təşkil edilmiş, burada şairlər, alimlər və saray ziyalıları bir araya gələrək dövrün ədəbi zövqünü formalaşdırmışlar. "Əncümən-i Xaqan" məclisi yalnız saray daxilində deyil, bütövlükdə dövrün ədəbi mühitinə güclü təsir göstərmiş, klassik ənənənin davam etdirilməsinə və yeni poetik meyillərin yaranmasına zəmin yaratmışdı.

Fətəli şahdan sonra taxta sahib olan Nasirəddin şah, Məhəmməd şah və Əhməd şahın da poeziyaya olan rəğbəti Qacar şahzadələrinin ədəbi ruhda tərbiyə olunmasına ciddi təsir göstərirdi (Tecrübekar, 1995:36). Sarayda şahzadələr üçün xüsusi müəllimlər təyin edilir, onlara klassik fars poeziyası, bəlağət və əruz elmi üzrə mükəmməl dərslər verilirdi. Bu sistemli təhsil nəticəsində bir çox şahzadələr elə yeniyetməlik yaşlarından şeir yazmağa həvəs göstərir, ədəbi məclislərdə iştirak edir və öz şeir divanlarını tərtib etməyə başlayırdılar. Buna görə də yalnız Fətəli şahın övladları içərisində 23 oğlunun və 9 qızının şair kimi tanınması təsadüfi deyil, Qacar sarayının ədəbi-mədəni istiqamətdə apardığı siyasətin məntiqi nəticəsi idi.

## 2. Qacar sülaləsinə mənsub şairlər

Qacar şahzadələri arasından çoxlu şair çıxmışdır və onlar haqqında bir çox məxəzlərdə məlumata rast gəlinir. Şahzadə şairlər haqqında soraq verən ilk qaynaqlardan biri Məhəmməd Fazil xan Gərrusinin "Əncümən-i Xaqan" (1819) təzkirəsidir. Eyni zamanda, Əbdürrəzzaq bəy Dünbülinin "Nigaristan-e Dara" (1826), Seyid Əhməd Divanbəyi Şirazinin "Hədiqət üş-şüəra", Qacarlar dövrünün görkəmli ictimai-siyasi xadimi, pedaqoq və tarixçisi Rzaqulu xan Hidayətin 1867-ci ildə tamamladığı "Məcmə ül-füsəha" təzkirəsi də Qacarlar xanədanının şairləri haqqında bilgi verən mühüm qaynaqlardan sayılır.

Bunlardan başqa, bəzi Qacar şahzadələrinin özləri tərəfindən də müxtəlif səbkdə təzkirələr qələmə alınmış və bu əsərlərdə şahzadə şairlərin yaradıcılığı işıqlandırılmış, şeirlərindən örnəklər verilmişdir. Belə ki, Mahmud Mirzə Qacar "Gülşən-i Mahmud" (1820), "Bəyan ül-Mahmud" (1824), "Səfinət ül-Mahmud" (1824), Hülaku Mirzə "Xərabat" adlı təzkirəsinin müasir şairlərə həsr olunmuş hissəsində çoxsaylı Qacar şahzadələrindən bəhs etmişdir. Mirzə Əliəkbər Nəvvab Şirazinin "Təzkire-yi Delgoşa" və Məhəmməd Müzəffər Mouləvi Səbanın "Ruz-e rouşən" təzkirələrindən də şahzadə şairlər haqqında bilgilər əldə etmək mümkündür.

Adlarını sadaladığımız tarixi mənbələrdə Qacarlar xanədanının 100-dən artıq ədəbi fəaliyyətlə məşğul olan nümayəndəsi haqqında məlumat verilir.

## 3. Məhəmmədəli Mirzə Dövlətşah Qacar

Fətəli şah Qacarın böyük oğlu Məhəmmədəli Mirzə Dövlətşah Qacar h.q.1203/m.1789-cu ildə Mazandaran vilayətinin Nəva qəsəbəsində dünyaya gəlmişdir. Anası gürcü əsilli Zibaçöhrə xanım Qacar soyundan olmadığı üçün o, Abbas Mirzə Naibüssəltənədən yeddi ay böyük olmasına baxmayaraq (doğum tarixi – 05 yanvar 1789-cu il), vəliəhd ola bilməmişdi. Məhəmmədəli Mirzə "Dövlətşah" ləqəbi ilə məşhur idi. O, əvvəlcə 1797-ci ildə Fars əyalətinin, 1799-cu ildə Qəzvin və Gilanın, 1804-cü ildə Xuzistan və Loristanın, daha sonra isə İraq-i əcəm vilayətlərinin hakimi təyin edilmiş, 1806-cı ildən Kirmanşah hakimi olmuşdur. Dövlətşah çox cəsur və qoçaq sərkərdə idi, o, hökumət əleyhinə qalxmış iğtişaşların yatırılmasında və İran–Osmanlı savaşında fəal iştirak etmiş, Osmanlı ordusu ilə son qarşıdurmasında, Zur şəhərinin hakimi Məhəmməd paşa ilə döyüşdən sonra Süleymaniyyədən Bağdad istiqamətinə hərəkət edərkən halı dəyişmiş və h.q.1237/m.1821-ci ildə Eyvan-i Mədain yaxınlığında vəfat etmişdi. Şahzadənin cənazəsi Kirmanşah ətrafında, özünün saldığı bir bağda dəfn edilmişdir.

Əliqulu Mirzə Etizadüssəltənənin verdiyi məlumata görə, onun ölümü h.q.1236-cı ilin səfər ayının 23-nə təsadüf edir, dəfn yeri isə İraqdakı müqəddəs ərazilər göstərilir (Etizadüssəltənə, 1370:185).

Kirmanşah hakimiyyəti qədimdən kürd nəslindən olan tayfaların əlində olmuş və Dövlətşahın Kirmanşaha gəlişi zamanı da əsrlər boyu Zəngənə tayfasının başçıları bu bölgəyə hakimlik etmişlər. Qacarlar öz hakimiyyətlərinə legitimlik qazandırmaq üçün xüsusilə Kəlhur və Zəngənə tayfaları olmaqla, kürd bəylərinin və zadəgan ailələrinin qızları ilə evlənirdilər. Kirmanşaha hakim təyin edildikdən sonra öz hakimiyyətini möhkəmləndirməyə çalışan Məhəmmədəli Mirzə Dövlətşah da əvvəlcə həmin dövrdə Kəlhur tayfasının adlı-sanlı bəylərindən birinin qızı Mehrəfəruz xanımla,

h.q.1215/m.1800-cü ildə Əhməd xan Marağayinin qızı ilə də evlənmişdir (Amanat, 1994:148).

Dövlətşahın bir neçə izdivacından on oğlu və on dörd qızı dünyaya gəlmişdir. Onun Məhəmmədhüseyn Mirzə Heşmətüddövlə, Təhmasib Mirzə Müəyyidüddövlə, Nəsrulla Mirzə Vali, Əsədulla Mirzə, Fətulla Mirzə, İmamqulu Mirzə İmadüddövlə, Nurulla Mirzə, Cahangir Mirzə, Məhəmmədrəhim Mirzə və Əbülhəsən Mirzə adlı oğulları vardı.

Məhəmmədəli Mirzə Dövlətşahın nəvə-nəticələrinin sayının hazırda İranda və dünyanın müxtəlif ölkələrində təxminən əlli min nəfərdən artıq olduğu bildirilir. Onlar əsasən "Dövlətşah" və "Dövlətşahi" soyadları ilə tanınırlar. Mərhum tədqiqatçı, etnoqraf alim, yazıçı və jurnalist Ənvər Çingizoğlu (1962-2022) Məhəmmədəli Mirzə Qacarın soyundan olan 100-dək şəxsin adlarını müəyyən etmişdir (Çingizoğlu, 2008:46-49).

## 4. Məhəmmədəli Mirzə Dövlətşahın idarəçilik fəaliyyəti

Məhəmmədəli Mirzə Dövlətşah Fətəli şahın sevimli övladlarından biri idi. O, Tehrana çağırıldıqda onun üçün digər şahzadələrdən ayrı xüsusi bir saray ayrılırdı və Dövlətşahın ölümündən sonra Fətəli şah vəfat edənədək həmin sarayın qapısı açılmadı. Dövlətşah bacarıqlı, tədbirli və cəsur sərkərdə idi, o, alimlərə xüsusi hörmət bəsləyirdi. O, dövrün tanınmış üləmalarından olan Əhməd Əhsayini bir müddət Kirmanşahda qalmağa dəvət etmiş və Şeyx Əhməd Dövlətşahın ölümünə qədər ondan müavinət almışdı (Algar, 1969:68).

Şahzadə Məhəmmədəli Mirzə Dövlətşah öz hakimiyyəti altında olan bölgələrin abadlaşdırılmasına xüsusi diqqət yetirirdi. Onun dövründə inşa edilmiş tarixi abidələr Kirmanşahda və ətraf bölgələrdə indiyədək qalmaqdadır. Şahzadə və onun övladları Kirmanşah və Loristanın abadlaşdırılmasında mühüm rol oynamışlar. Şüştərdə yerləşən, *Dövlətşah bəndi* adı ilə məşhur olan *Mizan* su bəndinin bərpa edilməsi şahzadənin vaxtında həyata keçirilmişdir (Xavəri Şirazi, 1380:240).

Kirmanşah şəhərinin ənənəvi ticarət mərkəzi və Yaxın Şərqin ən böyük qapalı bazarı hesab olunan *Kirmanşah bazarının* əsası Zəndlər dövründə qoyulmuş, lakin indiki ölçülərindən xeyli kiçik olmuşdur. Təxminən 200 il əvvəl, şəhərin hakimi Məhəmmədəli Mirzənin dövründə bazar xeyli genişləndirilmiş və əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Şahzadənin dövründə bazar kompleksi yenidən qurulmuş, ona bir sıra yeni memarlıq elementləri əlavə edilmişdir.

Dövlətşahın altıncı oğlu İmamqulu Mirzə İmadüddövlə (1814-1875) də bir neçə karvansaranın salınması, yol inşası, İmadüddövlə məscidinin və Qeysəriyyənin tikilməsi ilə bazarın ərazisini xeyli genişləndirmişdi (Etimadüssəltənə, 1367:508).

İqtisadi yüksəliş dövründə və İpək yolu üzərində yerləşməsi səbəbindən bu bazar Avropa və Asiya tacirlərinin əsas ticarət mərkəzlərindən biri olmuşdur, həmçinin, unikal strukturuna və strateji mövqeyinə görə zəngin mədəni irs nümunəsi sayılır.

Kirmanşah şəhərinin Feyzabad məhəlləsində inşa edilmiş *Dövlətşah məscidi* unikal memarlıq abidələrindən biridir. Hazırda bu məscid dini elmlər üzrə təhsil alan tələbələrin yaşadığı və təhsil aldığı məkan kimi fəaliyyət göstərir.

Kirmanşah şəhərində Çaharbağ adı ilə tanınan ərazidə yerləşən *Şahzadə məscidi (Şazdə məscidi)* kimi tanınan məscid də Dövlətşahın adı ilə bağlıdır.

Dövlətşah Kirmanşahda möhtəşəm bir saray inşa etdirmiş və həmin sarayda qiymətli kitablar, eləcə də nadir və unikal əlyazmalar toplusundan ibarət zəngin bir

kitabxana yaratmışdı. *Dövlətşah kitabxanası* adı ilə məşhur olan kitabxanaya məxsus əlyazmaların bir hissəsi hazırda İran İslam Şurası Məclisinin Kitabxanasında qorunub saxlanılır.

İranın qərbində yerləşən indiki Məlayir şəhəri h.q.1224/m.1809-1810-cu illərdə Qacar şahzadəsi Məhəmmədəli Mirzə Dövlətşah tərəfindən salınmışdır. Coğrafi-tarixi keçmişi baxımından, qeyd etmək lazımdır ki, bu ərazi qədim dövrlərdən Məlayir adı ilə tanınsa da, məhz Məhəmmədəli Mirzənin təşəbbüsü və himayəsi nəticəsində yaşayış məskəni kimi planlı şəkildə salınmış, inkişaf etmiş və şəhər statusu qazanmışdır.

Dövlətşahın bu xidmətlərini yüksək qiymətləndirən qardaşı Şeyxəli Mirzə Qacar ehtiram əlaməti olaraq şəhərə *Dövlətabad* adını vermişdir. Bu ad müəyyən müddət işlədilsə də, tarixi ənənənin yaşadılması səbəbindən yerli əhali arasında Məlayir adı daha geniş yayılmış və günümüzə qədər qorunub saxlanılmışdır.

İranın nadir və möhtəşəm tarixi abidələrindən olan, indiki Xürrəmabad şəhərinin mərkəzində gur sulu bir bulağın kənarında qədim təpənin üzərində yerləşən *Fələkül-əflak qalası,* digər tarixi abidələr kimi, keşməkeşli bir tarixi yol keçmişdir. Dövlətşah bu qədim və xaraba vəziyyətdə olan qalanı indiki görkəminə uyğun şəkildə bərpa etmiş və ona "Fələkül-əflak" adını vermişdir. O, qaladakı ən hündür və bütün Xürrəmabad şəhərinə və onun ətraf bölgələrinə nəzarət edən qüllənin üstündə bir otaq inşa etdirərək onu "Fələkül-əflak" adlandırmış, sonradan bu ad bütün qala kompleksinə şamil edilmişdir.

Dövlətşah təqribən h.ş.1200/m.1821-ci ildə Xürrəmabadda *Gülüstan imarətini* inşa etdirmişdir. Bu imarət Fələkül-əflak qalasını əhatə edən geniş ərazini özündə birləşdirirdi. Ətrafına 12 qüllə yerləşdirilmiş hasar daxilində hakimlər evi, məscid, hamam, atlar üçün tövlə və dəyirman da tikilmişdir. Bu 12 qüllənin həm estetik məqsədlə, həm də mühafizə məntəqələri kimi inşa olunması səbəbindən ərazi "Onikiqülləli" adı ilə də tanınmışdır.

Fətəli şah Qacarın hökmranlığı dövründə, Məhəmmədəli Mirzə Dövlətşahın Kirmanşah və İraqla sərhəd ərazilərinin idarəsinə təyin olunması nəticəsində onun bacarığı və səriştəsi sayəsində bölgədə beynəlxalq ticarət əlaqələri yarandı. Dövlətşahın fəaliyyəti ilə Kirmanşah mühüm ticarət mərkəzinə çevrildi, İraq, Hindistan və Rusiya ilə sıx ticarət əlaqələri quruldu.

## 5. Məhəmmədəli Mirzə Dövlətşahın bədii yaradıcılığı – "Divan-e Dövlət"

Şahzadə Məhəmmədəli Mirzə Qacar "Dövlət" təxəllüsü ilə şeirlər yazırdı. Dövlətşahın təxminən 4.000 beytdən ibarət şeir divanı yadigar qalmışdır. Divanın İran kitabxanalarında müxtəlif əlyazma nüsxələri mövcuddur. Bunlardan ən məşhuru İran Məclis Kitabxanasında və İran Milli Kitabxanasında saxlanan əlyazma nüsxələridir.

Qacarlar dövrünün tanınmış şair və ədiblərindən olan və Dövlətşahın sarayında xidmət edən Məhəmmədsadiq Natiq İsfahani h.q.1228/m.1813-cü ildə Dövlətşahın divanına müqəddimə yazmışdır. Bu müqəddimədə müəllif divanın bədii xüsusiyyətlərini təsvir edərək, şahzadənin ədəbiyyat və poeziya sahəsindəki bacarığını və yüksək zövqünü vurğulamışdır.

Qacar şahzadələrinin əksəriyyəti kimi, Dövlətşahın da şeirləri fars dilindədir. Tarixçi alim Namiq Musalı Məhəmmədəli Mirzə Qacarın şeir divanının İran Məclis Kitabxanası və İran Milli Kitabxanasında saxlanılan əlyazma nüsxələrində Azərbaycan türkcəsində yazdığı bir mərsiyənin yer aldığını qeyd edir (Musalı, 2023:43-62).

Məhəmmədəli Mirzə Dövlətşahın şeir divanının nadir bir əlyazma nüsxəsi də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda mövcuddur. "Divan-i Dövlət" adlanan bu əlyazma B-96/1714-3479 inventar şifri altında mühafizə edilir. Əlyazma 195 vərəqdən, 390 səhifədən ibarətdir, vərəqlərin ölçüsü 18.5x13 sm-dir. Əlyazmanın cildi üzəri qara haşiyəli müxtəlif ölçülü kiçik trapesiya şəkilli həndəsi fiqurlar təsvir olunmuş göyümtül-boz rəngdə kartondandır. Vərəqlər nazik və kövrəkdir, şeirlər qara mürəkkəblə zərif nəstəliq xətti ilə iki sütunda yazılıb, sütunlar qoşa qara düz xətlə ayrılır, səhifələr üçqat düzxətli – göy, qızılı və qara rəngli haşiyəyə alınıb. Şeirlərin başlıqları qırmızı mürəkkəblə yazılıb. Əlyazmanın köçürülmə tarixi qeyd olunmayıb, XIX yüzilliyin I yarısına aid olduğu ehtimal edilir.

Məhəmmədəli Mirzə Dövlətşahın divanı klassik fars-İran poeziya ənənələri üzərində qurulmuş və dövrünün saray ədəbiyyatının əsas xüsusiyyətlərini yüksək səviyyədə əks etdirən bir şeir külliyyatıdır. "Divan-i Dövlət" adlanan bu əlyazma aşağıdakı struktur tərkibinə malikdir:

*Qəzəllər* – Dövlətşahın divanının əsas hissəsini təşkil edir, bu nüsxədə 275 qəzəl var. Qəzəllərdə həm məhəbbət, təbiət-peyzaj təsviri, həm də fəlsəfə və sufizmlə bağlı mövzulara toxunulmuşdur. Onun qəzəllərində qafiyə və rədiflərə, o cümlədən, bədii təsvir vasitələrinə klassik qaydalara uyğun olaraq diqqətlə riayət edilmişdir. Qəzəllər əsasən 7-12 beytdən ibarətdir. Müəllif öz təxəllüsünü – "Dövlət" – çox zaman məqtə beytindən əvvəlki beytdə vermişdir.

*Rübailər* – divanda 63 rübai verilmişdir. Qısa, lakonik bədii formalı rübailər əsasən dini mövzulu və insan həyatının mənası, əxlaq və həyat fəlsəfəsi ilə bağlı fikirləri əks etdirir. Rubailər müəllifin dərin düşüncə və təhlil qabiliyyətini göstərir.

*Məsnəvilər* – Dövlətşahın divanında həm dini və tarixi hadisələr, həm də şəxsi hiss-həyəcan və məhəbbət mövzuları ilə bağlı irihəcmli əsərlər – məsnəvilər vardır. Dövlətşahın məsnəviləri əsasən səbaya (səhər yeli) müraciətlə yazılıb. Divanda müxtəlif məzmunlu (kiçik hekayət, mənzum məktub və s.) 10 məsnəvi yer alır.

*Qəsidələr* – divanda minacat, peyğəmbərin tərifinə həsr olunmuş və digər dini-fəlsəfi məzmunlu 10 qəsidə var. Məhəmmədəli Mirzə Dövlətşah bu qəsidələrdən birini atası Fətəli şaha həsr etmişdir, 44 beytdən ibarət qəsidədə Qacar şahı mədh edilir.

*Mərsiyələr* – divanda irili-xırdalı 24 mərsiyə verilmişdir. Mərsiyələr əsasən Kərbəla hadisələrinə həsr olunmuşdur.

Mahmud Mirzə Qacar Dövlətşahın qırx min beytlik şeir divanı olduğuna və müasirləri haqqında "Məaser-e Doulətşah" adlı təzkirə yazdığına işarə etmişdir (Qacar Mahmud Mirzə, 1346:124). *"Dövlətşahın şeir divanı nadir incilərlə doludur"* deyən Rzaqulu xan Hidayət onun yaradıcılığından aşağıdakı misraları vermişdir:

هم فیض گرفتاری و هم ذوق رهائی　　کز بند گشودم پرم در قفس اما
گفتم نفسی همنفسم شو ز سر مهر　　شد یک نفسم همنفس آخر نفس اما
از مرگ کسی تا نشوی خرم و غمگین　　کاین ره همه را پیش بود پیش وپس اما

(Hidayət, 1380:137)

*Həm giriftar olmaq ləzzəti, həm də azadlığın zövqü*
*Qanadımın bəndini açdım, amma qəfəsdə.*
*Dedim, bir an mənimlə həmnəfəs ol məhəbbət üzündən,*
*Axırıncı nəfəsim mənimlə həmnəfəs oldu.*
*Kiminsə ölümünə şad və qəmgin olmayasan*

*Ki, bu yol hamının qarşısında var, gec, ya tez.*

Bu lirik rübai də Məhəmmədəli Mirzəyə məxsusdur:

| | |
|---|---|
| ما عاشق و رندیم و خراباتی ومست | در پای خم افتاده ز پا رفته ز دست |
| پنداشته هست در جهان هر چه که نیست | انگاشته نیست در جهان هر چه که هست |

(Dövlətşah, v. 121)

*Biz aşiqik, rindik, meyxanə sakiniyik və məstik,*
*Küpün ayağına yıxılmış, əldən düşmüşük.*
*Dünyada olmayan hər şeyi var sanmışıq,*
*Dünyada olan hər şeyi isə yox bilmişik.*

Bu rübaidə insanın dünyanı yanlış dərk etməsi tənqid edilir. Şair "rind-məst" mövqeyindən çıxış edərək göstərir ki, həqiqi idrak yalnız zahiri ayıqlıqla deyil, mənəvi məstliklə, yəni cismani "mən"in əriyib yox olduğu halda mümkündür. Dördlük, bir növ, ziddiyyətlər üzərində qurulur: yalnız "sərxoş olan", həqiqətən, ayıqdır, yalnız "özü yox olan" həqiqəti tapır.

Qacar dövrü ədəbiyyatında, xüsusilə də saray poeziyasında mərsiyə janrı mühüm yer tutur və bu baxımdan sözügedən divanda yer alan 24 mərsiyə xüsusi əhəmiyyət kəsb edir. Bu mərsiyələr Qacar dövrünün dini-mənəvi dünyagörüşünü əks etdirən poetik örnəklərdir. Dövlətşahın mərsiyələrindən biri İslam peyğəmbərinə, biri Həzrət Əliyə həsr olunmuş, qalanları isə İmam Hüseyn və Kərbəla faciəsi mövzusunda qələmə alınmışdır ki, bu da Qacar saray mühitində şiə-təziyə ənənəsinin güclü təsirini göstərir.

Bu mərsiyələrdə şəhidlik, sədaqət, zülmə qarşı müqavimət və ilahi ədalət ideyaları əsas motivlər kimi çıxış edir. Şair Kərbəla hadisələrini təkcə tarixi faciə kimi deyil, həm də mənəvi sınaq və haqq-batil mübarizəsinin simvolu kimi təqdim edir. Dil və üslub baxımından mərsiyələrdə klassik fars ədəbiyyatının ənənəvi obrazlar sistemi – qan, susuzluq, səhranın əzablı yolları, məzlumluq, sədaqət və qəhrəmanlıq kimi məfhumlar geniş şəkildə istifadə olunur.

Üslub və janr cəhətdən Dövlətşahın mərsiyələri həm qəsidə, həm də mürəbbe və müxəmməs formalarında yazılmışdır ki, bu da müəllifin sənətkarlığının göstəricisidir. Mərsiyələrdə kədərli emosional motivlərlə yanaşı, didaktik çalarlar da güclüdür: şair oxucunu mübarizə və əqidə yolunda sədaqətli olmağa, zülmə boyun əyməməyə və mənəvi saflığa çağırır.

Dövlətşahın şeir divanının Bakı nüsxəsində aşkar etdiyimiz, eyni zamanda, yuxarıda qeyd etdiyimiz kimi, İran nüsxəsində də mövcud olan aşağıdakı türkcə mərsiyə Qacar şahzadələrinin türkdilli bədii irsinin öyrənilməsi cəhətdən əhəmiyyət daşıyır:

| | |
|---|---|
| *Genə oldu məhərrəm aşkara,* | *Cəhan içrə düşdü şur-ü qovğa.* |
| *Bu ayda ali-Tahayə nə gəldi,* | *Nə güllər ol gülüstandan dərildi.* |
| *Əliəkbər cahandan oldu məhrum,* | *Cinanə getdi Əsğər zar-ü məzlum.* |
| *Bədəl oldu əzayə suri-Qasim,* | *Nələr gördü Yəziddən ali-Haşim.* |
| *Hüseyn bin Əli qanə bulaşdı,* | *Cəfadən seyli-qəm başından aşdı.* |
| *Peyəmbər əhl-i beyti xar oldu,* | *Əsir-i ləşkər-i küffar oldu.* |
| *Çu keçdi karvan ol dəşt-i kindən,* | *Sepehrə yetdi vaveyla zəmindən.* |
| *Demə Zeynəb ki, ol sərgəşte əxtər* | *Çu gördü məqtəli-ali-peyəmbər.* |

*Hüseyn cismini səd çak gördü, Digərqun gərdişi-əflak gördü.*
*Dedi qardaşına ol zar-ü məğmum, Ki ey məzlumlardan cümlə məzlum!*
*Sən idin zinət-i duş-i peyəmbər, Sən idin zib-i ağuş-i peyəmbər.*
*Neyçün qanə bulaşdı peykərin, vay, Neyçün toprağdan oldu bəstərin, vay.*
*Sən, ey can bacı, başın hanı, Gözəl oğlanların, qardaşın, hanı?*
*Çu sən getdin, məni-biçarə neylim. Vətəndən olmuşam avarə, neylim?*
*Əsir-i qövmi-kafirkiş oldum, Sitəm cümlə cahandan biş gördüm.*
*Sənin Zeynəlebadın zar qaldı, Əsir-ü bikəs-ü bimar qaldı.*
*Səkinə ah-ü fəryadına neyləm, Bu qövmün cövr-ü bidadına neyləm?*
*Dəriğ oldum, yox idi Dövlət-i zar, Ki ta can ol imamə qıla isar.*
*Xudavənda, Hüseyn hörmətiçün Bu ah-ü şur-ü şeyn hörmətiçün.*
*Ki, yövmül-həşrdə bu zar-ü heyran, Peyəmbər alinə məşhur qılasan.*
*Uluğ şahı cahanda kamran qıl, Onun ədlindən aləmi çün cinan qıl!*
(Dövlətşah, v.178-179)

Təqdim edilən mərsiyə orijinal poetik əsər kimi həm ideya-məzmun, həm də Qacarlar dövründə türkdilli ədəbi mühitin dil xüsusiyyətlərinin öyrənilməsi cəhətdən əhəmiyyətə malikdir.

## Nəticə

Məhəmmədəli Mirzə Dövlətşahın şeir divanı o dövrün klassik Şərq ədəbiyyatının təmtəraqlı saray üslubuna uyğun şəkildə tərtib edilmişdir. Divanın struktur və məzmunu həm müəllifin zərif estetik zövqünü, həm də klassik farsdilli poeziyanın sirlərinə dərindən bələd olduğunu göstərir.

Divanın üslub və dil xüsusiyyətlərinə gəlincə, ümumi şəkildə qeyd etmək olar ki, Dövlətşah şerilərini ədəbi fars dilində yazmış, yeri gəldikcə ərəb və türk sözlərindən də istifadə etmişdir. Divanda dini-əxlaqi, təsəvvüf və ilahi sevgi mövzuları üstünlük təşkil edir.

Beləliklə, Məhəmmədəli Mirzə Dövlətşahın divanı sadəcə şeir məcmuəsi deyil, həm də XIX əsrin əvvəllərində farsdilli klassik Şərq ədəbiyyatının zənginliyini əks etdirən ədəbi nümunədir. Divanın Bakı nüsxəsinin indiyədək araşdırmaya cəlb edilmədiyini nəzərə alsaq, bu şeir toplusu XIX əsr farsdilli Azərbaycan ədəbiyyatının öyrənilməsi baxımından əhəmiyyət daşıyır.

## QAYNAQLAR:

1. Algar, H. (1969). *Religion and State in Iran 1785–1906*. Berkeley: University of California Press
2. Amanat, A. (1994). Dawlatšāh, Moḥammad-`alī Mīrzā. *Encyclopaedia Iranica*. https://www.iranicaonline.org/articles/dawlatsah-mohammad-ali-mirza/ - 18/01/2026
3. Çingizoğlu, Ə. (2008). *Qacar və Qacarlar kəndi*. Bakı: Şuşa.
4. Dövlətşah, Məhəmmədəli Mirzə Qacar. *Divan-e Dövlət*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, inv. № B-96/1714-3479.

5. Musalı, N. (2023). Kaçarların Türkçe şiirleri (Əşar-e torki-ye qacarha). Səlcuq. *Üç aylıq türkcə, farsca, ingiliscə dil, ədəbiyyat, tarix, mədəni və ictimai araşdırmalar dərgisi. № 6 (4-cü il)*, 43-62.
6. Tecrübekar, B. N. (1995). *İran Edebiyatında şiir – Kaçarlar devri*. Türkçeye çev.: Mehmet Kanar. İstanbul: İnsan Yayınları.
7. اعتضادالسلطنه، علیقلی‌میرزا.( ۱۳۷۰) اکسیر التواریخ، چاپ جمشید کیانفر، تهران
8. اعتمادالسلطنه، محمدحسن.( ۱۳۶۷) تاریخ منتظم ناصری، چاپ محمداسماعیل رضوانی، تهران
9. پاکروان، امنیه.(۱۳۷۶) عباس‌میرزا و فتحعلی‌شاه، ترجمه صفیه روحی، تهران
10. خاوری شیرازی، فضل‌الدین. (۱۳۸۰) تاریخ ذوالقرنین، چاپ ناصر افشارفر
11. قاجار، محمود میرزا.(۱۳۴۶) سفینةالمحمود، چاپ فیلمپور، تبریز
12. هدایت، رضا قلی خان.(1380) مجمع‌الفصحا. در دو جلد. تهران: انتشارات امیرکبیر

***The Literary Legacy of Qajar Princes – Mohammad-`Ali Mirza Dowlatshah***

***GULNAR AGIG JAFARZADE*****

***Summary***

*Qajar prince Mohammad-`Ali Mirza was known in the world of poetry by the pen name "Dowlat" and left behind a rich literary legacy. His poetic divan, consisting of approximately 4,000 couplets, has survived to the present day. Several manuscript copies of the Divan-i Dowlat are preserved in various libraries in Iran; the most famous among them are those kept in the Iranian Parliamentary Library and the National Library of Iran. In addition, a rare manuscript copy of Dowlatshah`s divan is also preserved in the collection of the Institute of Manuscripts named after Mohammad Fuzuli of the Azerbaijan National Academy of Sciences.*

*Mohammad-`Ali Mirza Dowlatshah`s poetic collection entitled Divan-i Dowlat can be regarded as one of the most characteristic examples of Qajar court poetry and as a continuation of classical literary traditions. The rich genre structure of the divan – encompassing ghazals, rubais, masnavis, qasidas, and elegies (marsiyas) – demonstrates the author`s broad poetic abilities and his mastery of traditional forms. Dowlatshah`s poems reflect his engagement with themes of love, Sufism, and philosophical thought. The presence of a Turkish elegy (marsiye) in the Baku manuscript of the divan indicates that the Qajar prince was well acquainted with Azerbaijani Turkish and illustrates the attachment of princes raised in Tabriz to their native language.*

***Keywords:*** *Mohammad-`Ali Mirza Dowlatshah, Qajar dynasty, Divan-i Dowlat, poetry, classical traditions.*

***Литературное наследие принцов Каджаров – Мохаммедали Мирза Довлатшах***

***ГЮЛЬНАР АГИГ ДЖАФАРЗАДЕ******

***Резюме***

*Принц Каджар Мохаммедали Мирза был известен в поэтических кругах под псевдонимом «Довлат» и оставил богатое литературное наследие. Его поэтический диван, состоящий примерно из 4.000 байтов, дошёл до нашего времени. Существует*

[**] Doctor of Philosophy in Philology; National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi; gulnarjafarzade2002@gmail.com; https://orcid.org/0000-0003-3907-8027

[***] Кандидат филологических наук; Национальный Музей Азербайджанской Литературы имени Низами Гянджави; gulnarjafarzade2002@gmail.com; https://orcid.org/0000-0003-3907-8027

*несколько рукописных копий «Диван-и Довлат» в различных библиотеках Ирана; среди них наиболее известны экземпляры, хранящиеся в библиотеке парламента Ирана и Национальной библиотеке Ирана. Кроме того, редкая рукописная копия дивана Довлатшаха хранится в фонде Института рукописей имени Мохаммеда Физули при Национальной академии наук Азербайджана.*

*Поэтический сборник Мохаммедали Мирзы Довлатшаха «Диван-и Довлат» можно рассматривать как один из наиболее характерных примеров придворной поэзии эпохи Каджаров и как продолжение классических литературных традиций. Богатая жанровая структура дивана, охватывающая газели, рубаи, маснави, касиды и марсии демонстрирует широкий поэтический диапазон автора и его мастерство в овладении традиционными формами. Стихи отражают размышления Довлатшаха о любви, суфизме и философии. Наличие турецкой марсии в бакинской рукописи дивана свидетельствует о том, что каджарский принц хорошо владел азербайджанским языком, что также отражает привязанность принцев, воспитанных в Тебризе, к родному языку.*

***Ключевые слова:*** *Мохаммедали Мирза Довлатшах, династия Каджаров, "Диван-и Довлат", поэтическое искусство, классические традиции.*

| | |
|---|---|
| **Redaksiyaya daxil olma tarixi:** | **27.10.2025** |
| **Çapa qəbul tarixi:** | **05.01.2026** |
| **Çap olunma tarixi:** | **28.01.2026** |